# IJTIMOIY-GUMANITAR SOHADA ILMIY-INNOVATSION TADQIQOTLAR

ILMIY METODIK JURNALI

ISSN 3060-5059



VOL.3 № 5 2026

# L.N. TOLSTOYNING “ANNA KARENINA” VA M.S. ORDUBADIYNING “TUMANLI TABRIZ” ROMANLARIDA AYOL OBRAZLARI

**Jabrailov Nasib Huseyn o‘g‘li**
Boku Slavyan universiteti, dotsent

**Annotatsiya**

Qiyosiy tahlil shuni ko‘rsatadiki, g‘oyaviy-estetik qarashlardagi farqlarga qaramay, Leo Tolstoyning Anna Karenina va Mammad Said Ordubadining “Tumanli Tabriz” romanlaridagi ayol obrazlari ayolning chuqur ma’naviy-psixologik olamini yuksak badiiy darajada aks ettiradi. L.N. Tolstoy ayol obrazini asosan individual-ma’naviy va psixologik yo‘nalishda tasvirlaydi. Anna Karenina jamiyatning qat’iy axloqiy me’yorlariga qarshi chiqib, shaxsiy baxt va erkinlik uchun kurashuvchi ayol tipi sifatida namoyon bo‘ladi. Yozuvchi ushbu obraz orqali jamiyatdagi axloqiy ziddiyatlarni, inson ichki dramatizmini va patriarxal muhit yuzaga keltirgan fojeani ochib beradi. Anna Kareninaning fojeali taqdiri individual his-tuyg‘ular bilan ijtimoiy me’yorlar o‘rtasidagi nomuvofiqlikning badiiy ifodasi sifatida talqin qilinadi. M.S. Ordubadi esa ayol obrazlarini ijtimoiy-ideologik va milliy-ma’naviy kontekstda yoritadi. “Tumanli Tabriz” romanida Mahru milliy uyg‘onish, ma’naviy matonat va ijtimoiy mas’uliyat timsoli sifatida tasvirlanadi. U milliy qadriyatlarga sodiq qolgan holda jamiyat yangilanishida faol qatnashuvchi ideal ayol modeli sifatida e’tiborni tortadi.Mahru va Kiti obrazlarining qiyosi mualliflarning badiiy yondashuvidagi farqlarni yanada yaqqol ko‘rsatadi. Agar Kiti oilaviy qadriyatlar, ma’naviy poklik va psixologik yetuklik ramzi bo‘lsa, Mahru milliy-ideologik qat’iyat va ijtimoiy faollik ifodachisi sifatida gavdalanadi.Demak, qiyosiy tahlil L.N. Tolstoy ayol obrazini ko‘proq individual-psixologik jihatdan, M.S. Ordubadi esa ijtimoiy-ideologik yo‘nalishda tasvirlaganini tasdiqlaydi. Har ikki asarda ham ayol insonning ma’naviy pozitsiyasini belgilovchi va jamiyat taraqqiyotida muhim o‘rin tutuvchi faol subyekt sifatida baholanadi.

**Kalit so‘zlar:** L.N. Tolstoy, M.S. Ordubadi, “Anna Karenina”, “Tumanli Tabriz”, ayol obrazlari, qiyosiy tahlil, psixologik realizm, milliy-ideologik kontekst, ma’naviy qadriyatlar, oilaviy munosabatlar, ayol erkinligi, ijtimoiy kurash, psixologizm, realist roman, badiiy-estetik xususiyatlar, milliy uyg‘onish, ijtimoiy-falsafiy yondashuv, Mahru, Anna Karenina, Kiti Sherbatskaya, Darya Aleksandrovna

# ЖЕНСКИЕ ОБРАЗЫ В РОМАНАХ АННА КАРЕНИНА ЛЕВ ТОЛСТОЙ И «ТУМАННЫЙ ТЕБРИЗ» МАМЕД САИД ОРДУБАДИ

**Джабраилов Насиб Гусейн оглы**
Бакинский славянский университет, доцент

**Аннотация**

Сравнительный анализ показывает, что, несмотря на различия в идейно-эстетических позициях, женские образы в романах Лев Толстой «Анна Каренина» и Мамед Саид Ордубади «Туманный Тебриз» отражают глубокий духовно-психологический мир женщины на высоком художественном уровне. Л.Н. Толстой представляет женский образ преимущественно в индивидуально-духовной и психологической плоскостях. Анна Каренина характеризуется как тип женщины, вступающей в конфликт с жёсткими моральными нормами общества ради личного счастья и свободы. Через этот образ писатель демонстрирует нравственные противоречия социума, внутренний драматизм личности и трагедию, порождённую патриархальной средой. Трагический финал Анны Карениной выступает художественным выражением несоответствия между индивидуальными чувствами и общественными нормами. М.С. Ордубади, напротив, представляет женские образы в общественно-идеологическом и национально-духовном контексте. В романе «Туманный Тебриз» Махру описывается как носительница национального пробуждения, духовной стойкости и социальной ответственности. Она привлекает внимание как идеализированная модель женщины, которая, оставаясь верной национальным идеалам, принимает активное участие в обновлении общества. Сравнение образов Махру и Кити наиболее ярко демонстрирует различия в художественных подходах авторов. Если Кити является символом семейных ценностей, духовной чистоты и психологической зрелости, то Махру выступает выразителем национально-идеологической твёрдости и социальной активности. Таким образом, сравнительный анализ подтверждает, что Л.Н. Толстой представил женский образ в большей степени в индивидуально-психологическом аспекте, тогда как М.С. Ордубади — в общественно-идеологическом

направлении. В обоих произведениях женщина оценивается как активный субъект, определяющий духовную позицию человека и играющий важную роль в развитии общества.

**Ключевые слова:** Л.Н. Толстой, М.С. Ордубади, «Анна Каренина», «Туманный Тебриз», женские образы, сравнительный анализ, психологический реализм, национально-идеологический контекст, духовные ценности, семейные отношения, женская свобода, социальная борьба, психологизм, реалистический роман, художественно-эстетические особенности, национальное пробуждение, социально-философский подход, Махру, Анна Каренина, Кити Щербацкая, Дарья Александровна.

## FEMALE CHARACTERS IN ANNA KARENINA BY LEO TOLSTOY AND "FOGGY TABRIZ" BY MAMMAD SAID ORDUBADI

**Jabrailov Nasib Huseyn o'g'li**
Baku Slavic University, Associate Professor

**Abstract**

The comparative analysis demonstrates that despite differences in ideological and aesthetic perspectives, the female characters in Anna Karenina by Leo Tolstoy and "Foggy Tabriz" by Mammad Said Ordubadi reflect the profound spiritual and psychological world of women at a high artistic level. L.N. Tolstoy presents female characters mainly through individual-spiritual and psychological dimensions. Anna Karenina is portrayed as a woman who enters into conflict with the rigid moral norms of society in pursuit of personal happiness and freedom. Through this character, the writer reveals the moral contradictions of society, the inner drama of the individual, and the tragedy generated by the patriarchal environment. Anna Karenina's tragic fate becomes an artistic expression of the incompatibility between personal feelings and social norms. In contrast, M.S. Ordubadi represents female characters within a socio-ideological and national-spiritual context. In the novel "Foggy Tabriz," Mahru is depicted as a bearer of national awakening, spiritual resilience, and social responsibility. She appears as an idealized model of a woman who remains faithful to national ideals while actively participating in the renewal of society. The comparison between Mahru and Kitty most clearly illustrates the differences in the authors' artistic approaches. While Kitty symbolizes family values, spiritual purity, and psychological maturity, Mahru embodies national-ideological determination and social activism.

Thus, the comparative analysis confirms that L.N. Tolstoy portrayed the female character mainly from an individual-psychological perspective, whereas M.S. Ordubadi emphasized the socio-ideological dimension. In both works, woman is evaluated as an active subject who determines the spiritual position of the individual and plays an important role in the development of society.

**Keywords:** Leo Tolstoy, Mammad Said Ordubadi, Anna Karenina, Foggy Tabriz, female characters, comparative analysis, psychological realism, national-ideological context, spiritual values, family relations, women's freedom, social struggle, psychologism, realist novel, artistic-aesthetic features, national awakening, socio-philosophical approach, Mahru, Anna Karenina, Kitty Shcherbatskaya, Darya Alexandrovna.

XIX əsr rus və dünya ədəbiyyatının klassiki L. N. Tolstoyun yaradıcılığının XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi M. S. Ordubadinin yaradıcılığı ilə müqayisəli şəkildə təhlili ədəbiyyatşünaslıq üçün diqqətəlayiq elmi istiqamət hesab olunur. Hər iki yazıçının yaradıcılığı insanın mənəvi aləmini, psixoloji xüsusiyyətlərini və cəmiyyətlə qarşılıqlı münasibətlərini dərindən əhatə edir. Qadın obrazlarının təhlili məsələsi dünya ədəbiyyatında olduğu kimi, rus və Azərbaycan ədəbiyyatında da hər zaman mühüm əhəmiyyət daşımışdır. Bu baxımdan L. N. Tolstoyun "Anna Karenina" romanı və M. S. Ordubadinin "Dumanlı Təbriz" əsəri ədəbiyyat tarixində qadın surətlərinin fərqli mədəni mühitlərdə necə təqdim olunduğunu araşdırmaq üçün çox dəyərli nümunələrdir.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, ədəbiyyatşünaslıqda ilk dəfə olaraq L. N. Tolstoyun "Anna Karenina" və M. S. Ordubadinin "Dumanlı Təbriz" romanlarında qadın surətlərinin müqayisəli təhlili aparılır. Müqayisə göstərir ki, hər iki yazıçı müxtəlif dövrlərdə və müxtəlif mühitlərdə fəaliyyət göstərsələr də, onların qadın surətlərinin cəmiyyətdəki yeri və rolu barədə ideya-fəlsəfi baxışlarında mühüm yaxınlıqlar mövcuddur. Bu yaxınlıqlar onların yaradıcılığını ümumbəşəri ideallar müstəvisində birləşdirir və tədqiqatın elmi əhəmiyyətini daha da artırır. Hər iki yazıçı qadın obrazını yalnız ailə münasibətlərinin iştirakçısı kimi deyil, həm də bütöv bir millətin mənəvi dirçəlişinin simvolu kimi təqdim

edir. Bu yanaşma həm realist roman poetikasının inkişaf dinamikasını, həm də dövrün ictimai-siyasi fikrində qadın surətinin funksional yükünün genişlənməsini izləməyə imkan yaradır.

Tədqiqatın əsas məqsədi L. N. Tolstoyun "Anna Karenina" və M. S. Ordubadinin "Dumanlı Təbriz" romanlarında qadın obrazlarının xarakterlərinin bədii-estetik xüsusiyyətlərini və psixoloji dərinliyini müqayisəli şəkildə təhlil etməkdir.

Bu məqsəd çərçivəsində aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

1. Hər iki əsərdə qadın surətlərinin ictimai və fəlsəfi yükünü müəyyənləşdirmək;
2. Qadın obrazlarının bədii strukturunu və psixoloji xüsusiyyətlərini təhlil etmək;
3. Müəlliflərin qadın azadlığına, mənəvi və əxlaqi dəyərlərə münasibətini araşdırmaq;
4. Qadın obrazlarının dövrün sosial-mədəni kontekstindəki rolu və funksiyasını müqayisəli şəkildə qiymətləndirmək.

Tədqiqatın obyekti L. N. Tolstoyun "Anna Karenina" və M. S. Ordubadinin "Dumanlı Təbriz" romanları, predmeti isə bu əsərlərdəki qadın obrazlarının müqayisəli-tipoloji təhlilidir.

**Ədəbiyyatların təhlili**

Tədqiqatın nəzəri-metodoloji əsasını rus və Azərbaycan ədəbiyyatşünaslığının aparıcı nümayəndələrinin əsərləri təşkil edir. Bu mənbələr qadın obrazlarının bədii təhlili, psixologizm, realizm və tarixi roman poetikası baxımından mühüm elmi baza yaradır.

Y. Axundlu Azərbaycan tarixi romanının inkişaf mərhələlərini araşdıraraq M. S. Ordubadinin yaradıcılığında ictimai-tarixi mühitin bədii inikasını ön plana çəkir və "Dumanlı Təbriz" romanının real hadisələr əsasında formalaşdığını qeyd edir [1, s. 56–57]. Bu yanaşma əsərdə qadın obrazlarının sosial mühitlə əlaqəsini anlamağa imkan verir.

M. Baxtin bədii sözün monoloji və dialoji təbiətini izah edərək ədəbi mətnin çoxsəsliliyini əsaslandırır [2, s. 90]. Bu nəzəri baxış Tolstoy və Ordubadi romanlarında daxili monoloq və dialoqun funksional rolunu təhlil etmək üçün mühüm metodoloji əsas yaradır.

M. Qocayev insanın mənəvi iztirab və günah hissinin psixoloji yükünü vurğulayır [3, s. 7]. Bu fikir "Anna Karenina" romanında obrazların daxili konfliktlərinin izahında xüsusi əhəmiyyət daşıyır.

Məmməd Arif M. S. Ordubadi yaradıcılığında mənəvi motivlərin dərin bədii təhlilinə üstünlük verildiyini göstərir [4, s. 54]. Bu, "Dumanlı Təbriz"də qadın obrazlarının ideya yükünü izah etməyə imkan verir.

D. S. Mirsky Tolstoy yaradıcılığını yüksək realist psixologizm nümunəsi kimi dəyərləndirir və onun insan ruhunun dərinliklərinə nüfuz etdiyini qeyd edir [5, s. 287]. Bu fikir Anna Karenina obrazının psixoloji dramatizmini izah edir.

M. S. Ordubadinin "Dumanlı Təbriz" romanı konkret tarixi hadisələr fonunda formalaşmış əsər kimi qiymətləndirilir və burada qadın obrazlarının real həyatdan götürüldüyü vurğulanır [6, s. 84–85].

L. N. Tolstoyun "Anna Karenina" romanı ailə və cəmiyyət münasibətlərinin psixoloji təhlili baxımından zəngin mənbədir və burada qadın obrazları mənəvi sınaqlar kontekstində təqdim olunur [7, I, s. 7].

F. Vəzirova M. S. Ordubadinin yaradıcılığını araşdıraraq onun əsərlərində ictimai mühitin qadın obrazlarının formalaşmasına birbaşa təsir etdiyini qeyd edir [8, s. 61].

V. Vinoqradov Tolstoyun üslubunu təhlil edərək onun monoloji təhkiyəsinin qəhrəmanların daxili aləmini açmaqda mühüm rol oynadığını vurğulayır [9, s. 63].

Ümumilikdə, təhlil olunan ədəbiyyat göstərir ki, Tolstoy yaradıcılığında qadın obrazları daha çox fərdi-psixoloji və əxlaqi müstəvidə, Ordubadi yaradıcılığında isə sosial-ideoloji və milli-mədəni kontekstdə şərh olunur. Bu mənbələr tədqiqatın müqayisəli təhlil istiqamətini elmi cəhətdən əsaslandırır.

**Metodologiya**

Tədqiqatda müqayisəli-tipoloji yanaşma və psixoloji təhlil metodlarından istifadə olunmuşdur. İşin elmi yeniliyi ondan ibarətdir ki, "Anna Karenina" və "Dumanlı Təbriz" romanlarında qadın obrazlarının təhlili sosial və mənəvi-fəlsəfi aspektlərdə ilk dəfə sistemli şəkildə müqayisəli formada aparılmışdır.

Hər iki yazıçının yaradıcılığında qadın obrazı insan azadlığını, mənəvi seçimi və əxlaqi məsuliyyəti təcəssüm etdirən əsas bədii vasitə kimi çıxış edir. Bu səbəbdən tədqiqat çərçivəsində "Anna Karenina" və "Dumanlı Təbriz" romanlarında qadın obrazlarının bədii təhlili və ideya-məzmun oxşarlıqları müqayisəli şəkildə araşdırılmışdır.

"Anna Karenina" romanında Anna Karenina, Katerina (Kiti) Şerbatskaya və Darya (Dolli) Aleksandrovna obrazlarının xarakterik xüsusiyyətləri, "Dumanlı Təbriz" romanında isə Mahru, Zeynəb,

Təhminə, Nina, miss Hanna, Şümşad, Nabat və digər qadın surətlərinin insani keyfiyyətləri, həmçinin çatışmazlıqları və qüsurları müqayisəli şəkildə, hərtərəfli və dərindən təhlil olunmuşdur.

**Nəticə və müzakirə**

L. N. Tolstoy və M. S. Ordubadi yuxarıda adları qeyd olunan romanlarında qadın obrazları vasitəsilə insan xarakterini, xalqlar və ailələr arasındakı ziddiyyətləri, eləcə də milli ruhda mövcud olan nəcib xüsusiyyətləri əks etdirməyə çalışmışlar. Romanların müqayisəli-tipoloji və psixoloji təhlili qadın surətlərinin oxşar və fərqli xüsusiyyətlərini dərindən araşdırmağa imkan yaradır və onların bədii-estetik, sosial və mənəvi aspektlərdə funksiyalarını daha ətraflı anlamağa şərait yaradır.

Hər iki yazıçının yaradıcılığında roman-epopeya janrının əsasları qoyulmuş, xalqların tarixi, milli təfəkkür, mübarizə əzmi, həyat tərzi və digər mühüm məsələlər bədii şəkildə canlandırılmışdır. Onların romanlarında qadın obrazları xüsusi önəm daşıyır; yazıçılar mənəvi-psixoloji problemləri əsaslandıraraq qadın xarakterlərinin dərin qatlarını açmağa nail olmuşlar. Eyni zamanda, qadın surətlərinin təhlili vasitəsilə müəlliflər onların mənsub olduqları xalqların milli ruhunu, mənəviyyatını və mədəniyyətini oxucuya çatdırmış, müxtəlif ailə və xarakterlər arasındakı həyat həqiqətlərini bədii cəhətdən təhlil etmişlər.

Təhlil göstərir ki, hər iki romanın süjet xəttinin mərkəzində qadın obrazları, onların xarakter problemləri, psixoloji vəziyyətləri və ailə münasibətləri dayanır. Hər bir qadın surətinin həyat tərzinin ətraflı təsviri, psixoloji durumunun incəliklərinə qədər izlənməsi, eləcə də xarakter xüsusiyyətlərinin bədii və əhatəli şəkildə təqdim olunması həm əsərlərin məzmununu, həm də kompozisiyasını daha dolğun və mənalı etmişdir.

L. N. Tolstoy və M. S. Ordubadi sözügedən romanlarında kompozisiyanın dolğunluğunu təmin etmək üçün bədii təsvir və ifadə vasitələrindən, təbiət təsvirindən, həm qadın obrazlarından, həm də ikinci dərəcəli personajlardan ustalıqla istifadə etmişlər. Hər iki romanda — “Anna Karenina” və “Dumanlı Təbriz”də həm təbiət baxımından dolğun, həm də iradə baxımından güclü surətlər silsiləsi yaradılmış, ideya və bədii cəhətdən zəngin xarakterlər sistemi formalaşdırılmışdır.

M. S. Ordubadinin “Dumanlı Təbriz” romanı 1907–1911-ci illərdə Cənubi Azərbaycanda və İranda baş vermiş genişmiqyaslı İran inqilabını, həmçinin 1907–1917-ci illərdə Cənubi Azərbaycan xalqının azadlıq hərəkatını əks etdirmək məqsədi daşısa da, əsərdə ailə münasibətləri, qadın problemləri və onların milli azadlıq uğrundakı mübarizələrinə də geniş yer verilmişdir. F. Vəzirova qeyd edir ki, “Dumanlı Təbriz” romanının mövzu və materialını mühit, həyat özü hazırlamışdı” [8, s. 61].

Əsərdə baş verən hadisələrin mərkəzində bir çox hallarda qadınların iştirakı diqqət çəkir. Oxucu onların yaşadıqları həyəcanları və emosional durumlarını birbaşa hiss edir. Y. Axundlu qeyd edir ki, “Səttarxan inqilabına rəğbət bəsləyən Təbriz qadınları haqqında xalq mahnıları da qoşulmuşdur. İnqilab dövründə qadınlar üçün inqilabi komitənin təşəbbüsü ilə xüsusi cəmiyyət təsis olunur, kinoteatr yaradılır, lakin mürtəce qüvvələr buna imkan vermirlər” [1, s. 56–57].

M. S. Ordubadinin “Dumanlı Təbriz” romanında olduğu kimi, “Qılınc və qələm”, “Döyüşən şəhər” və digər əsərlərində də qadın problemlərinə geniş yer verilmişdir. “M. S. Ordubadinin təsvir etdiyi surətlərin əksər qismi real həyatdan alınmış, müəllifin şəxsən görüb tanıdığı, müşahidə etdiyi, dövrün səciyyəvi cəhətlərini özündə cəmləşdirən və fərdi xüsusiyyətləri ilə seçilən tipik surətlərdir” [1, s. 58–59].

M. S. Ordubadinin “Dumanlı Təbriz” romanından fərqli olaraq, L. N. Tolstoyun “Anna Karenina” əsəri ilk səhifələrindən sonuna qədər ailə münasibətləri və qadın problemlərinə həsr olunmuşdur. Roman dialoqların, daxili monoloqların və psixoloji təhlilin zənginliyi ilə seçilir və qadın obrazlarının mənəvi-psixoloji dərinliyini əhatəli şəkildə təqdim edir.

L. N. Tolstoyun “Anna Karenina” romanının başlanğıcında oxucu psixoloji gərginliklə qarşılaşır. Bu gərginliyin əsas mənbəyi Oblonskilərin ailəsində baş verən xəyanət hadisəsidir. Darya Aleksandrovna ərinin evlilik münasibətlərinə xəyanət etdiyini, konkret olaraq “fransız qadını ilə əlaqədə olduğunu öyrəndikdən sonra ona bildirmişdir ki, artıq eyni evdə yaşamağa davam edə bilməyəcəkdir” [7, I, s. 7]. Bu hadisə ailədaxili münasibətlərin gərginliyini və fərdi psixoloji durumun mürəkkəbliyini nümayiş etdirir. Ər və arvad arasındakı ailədaxili konflikt ailənin bütün üzvlərinə, hətta xidmətçilərə qədər mənfi təsir göstərmişdi. Mətbəxdə çalışan aşpazın, evin sürücüsünün və uşaqların əhvali-ruhiyyəsi pozulmuş, aşpaz və sürücü hətta işdən çıxmaq istəyi ifadə etmişdilər. Psixoloji gərginlik o həddə çatmışdı ki, Darya Aleksandrovna öz otağından bayıra çıxmır, Stepan Oblonski isə üç gündür evə gəlmirdi. Stepan Arkadiç Oblonski baş verən hadisələri xatırladıqca özünü günahkar hesab edir və ümidsizliyə qapılırdı ki, bu da onun daxili psixoloji durumunun mürəkkəbliyini göstərirdi. Prof. M. Q. Qocayev qeyd edir ki, “İnsanın öz günahını dərk edərək mənəvi əzab çəkməsindən ağır cəza ola bilməz” [3, s. 7].

Hadisələrin sonrakı gedişi göstərdi ki, Stepan Arkadiç Oblonski şəxsi dürüstlük və mənəviyyat

baxımından zəif bir obrazdır. Onunla müqayisədə Darya Aleksandrovna daha alicənab, iradəli və ürəyiaçıq bir simadır. Ərinin mənəvi çatışmazlıqlarına baxmayaraq, Darya Aleksandrovna uşaqlarının və ailəsinin xatirinə onu bağışladı, günahlarından keçdi. Eyni zamanda, əsərin bəzi məqamlarında Darya Aleksandrovanın da müəyyən dərəcədə xəyanətə meyilli olduğu hiss olunsa da, övladlarına olan məhəbbət və ailəyə bağlılıq onu bu yoldan çəkindirdi. O, sonadək şəxsi şərəf və namusunu qoruyub saxlayaraq nəfsinə hakim oldu, kənar təsirlərə məruz qalmadı. Beləliklə, Darya Aleksandrova ailə həyatının bütövlüyünü şəxsi maraq və keçici hisslərdən üstün tutdu. “Tolstoyun qadın qəhrəmanları yalnız hisslərin ifadəsi deyil, həm də əxlaqi prinsiplərin sınaq meydanıdır” [5, s. 287]. Bu kontekstdə L. N. Tolstoyun “Anna Karenina” romanı ailə, insan və cəmiyyət münasibətlərini yüksək psixoloji dərinlik və mürəkkəblik səviyyəsində ümumiləşdirən əsər kimi qiymətləndirilə bilər.

L. N. Tolstoy realizminin əsas xüsusiyyətlərindən biri insanın daxili aləminin dərin bədii təhlilidir. XIX əsr realist yazıçılarının çoxu cəmiyyətin sosial və siyasi ziddiyyətlərini fərdi insan taleləri prizmasından təqdim etməyə çalışırdılar. L. N. Tolstoy bu ənənəni davam etdirərək onu yüksək səviyyəyə çatdırmışdır. Onun əsərlərində insanın mənəvi məsuliyyəti və azadlığı problemi bütün yaradıcılığının mərkəzi mövzusu və mənası hesab olunur. L. N. Tolstoy üçün qadın obrazı yalnız ailə müstəvisində deyil, həm də insanın mənəvi təkamülünün göstəricisi olaraq önəm kəsb edir.

Onun əsərlərindəki qadın qəhrəmanlar — Anna Karenina, Nataşa Rostova, Katerina Şerbatskaya, Darya Aleksandrovna və digər obrazlar — bir tərəfdən dövrün mövcud sosial stereotipləri və patriarxal normaların təsiri altında formalaşır, digər tərəfdən isə şəxsi iradə, mənəvi saflıq və səmimi sevgi uğrunda daxili mübarizə aparan fərdlər kimi təqdim olunur.

M. S. Ordubadinin “Dumanlı Təbriz” romanı Azərbaycan nəsrində xüsusi yer tutur. Roman XX əsrin əvvəllərində Cənubi Azərbaycanın ictimai-siyasi və mənəvi mübarizəsini əks etdirir və bu prosesdə qadın obrazlarının rolu yazıçının ədəbiyyata və həyata humanist yanaşmasını açıq şəkildə nümayiş etdirir. Yazıçı qadın obrazlarını yalnız ailə mühitində passiv simalar kimi deyil, mübarizənin, maarifçiliyin və milli özünüdərk prosesinin fəal iştirakçıları kimi təqdim edir. Romandakı qadın obrazları ümumilikdə üç əsas funksiyanı yerinə yetirir:

1. Maarifçi və yenilikçi qadınlar.

Bu tip obrazlar əsasən əsərin ideoloji xəttini gücləndirmək məqsədilə təqdim olunur. Onlar:

a) cəmiyyətdə savadlanma və maarifçilik ideyasının daşıyıcılarıdır;

b) köhnə düşüncə ilə yeni baxışlar arasında körpü rolunu oynayırlar.

Bu qrupa Mahru xanımı aid etmək olar. O, əsərin mərkəzi qadın obrazı olaraq yazıçının qadına dair maarifçi və humanist baxışlarını birləşdirir. Onun obrazı inkişaf etdikcə daha da təkmilləşir, fəaliyyət dairəsi genişlənir və siyasi mübarizədə əqidə yoldaşlarına dəstək verir. Romandakı bu tip qadınlar inqilabi hərəkatın birbaşa və ya dolayı yolla iştirakçılarıdır ki, bu da yazıçının qadını ictimai-siyasi varlıq kimi təqdim etməsini nümayiş etdirir.

2. Ənənəvi ailə dəyərlərini təmsil edən qadınlar.

Bu obrazlar dövrün sosial-məişət reallığını göstərmək məqsədilə yaradılmışdır. Onlar vasitəsilə:

a) qadının cəmiyyətdəki məhdud hüquqları;

b) ağır yaşam şərtləri;

c) ictimai təzyiq və köhnə adətlərin təsiri nümayiş etdirilir.

Bu qrupa Təhminə, Zeynəb, Nabat və digər obrazlar daxil edilə bilər.

3. Qadının ictimai-siyasi mübarizədə iştirakı.

Bu qrupa Nina, miss Hanna və bəzi hallarda Mahru xanım da daxil edilə bilər. Mahru savadlı və azad düşüncəli olmaqla yanaşı, cəsarəti ilə də seçilir və haqsızlıqla heç vaxt barışmır. Onun bu xüsusiyyətləri Smirnov ilə ailə həyatı qurduqda və əsərin bütün gedişində açıq şəkildə görünür. Mahru kişi kimi qeyrətli, məğrur və iradəli bir qadındır. Təbrizin çətin dövrlərində düşmənlərə qarşı mübarizədə kişilərlə bərabər iştirak edir, inqilabçıları bacardığı qədər dəstəkləyir və eyni zamanda mənəvi cəhətdən kamil bir simadır.

Digər tərəfdən, Mahru xanım obrazı məhəbbət xətti ilə ictimai-sosial xətti funksional şəkildə əlaqələndirərək bu iki müstəvi arasında metaforik bir keçid — ideya-bədii körpü yaradır. O, Aleksandr Smirnovu sevmiş, onu müsəlman olmağa və İslam dinini qəbul etməyə təşviq etmişdir. Lakin sonrakı mərhələdə Mahru xanım Smirnovun ictimai və gizli fəaliyyətinin mahiyyətini, aldatma strategiyasını və Təbrizdə qanlı repressiyaların həyata keçirilməsi planlarını dərk etdikdən sonra, onun məhv edilməsinə dair qərarın verilməsində həlledici subyektə çevrilir. Mahru xanım nəticədə Smirnovu Təbrizə gəlişinə görə peşman edir və onun Təbrizdə həm ictimai-siyasi fəaliyyətinə, həm də həyatına son qoyur.

M. S. Ordubadi Mahru obrazı vasitəsilə Cənubi Azərbaycanın gələcək inkişaf perspektivlərinin qadınların azadlığı, təhsili və ümumi maariflənmə səviyyəsindən birbaşa asılı olduğunu vurğulayır. Müəllifin fikrincə, dil, savad, elmi və mədəni əsasları yetərincə formalaşmamış bir xalqın dayanıqlı gələcək qurması mümkün deyil. Romanda Mahru obrazı ilə yanaşı, müxtəlif sosial-mədəni səviyyələrdə fəaliyyət göstərən digər qadın surətləri də təqdim olunur. Bu qadınlar ailədaxili münasibətlərdə təzyiqə məruz qalır və patriarxal norma və stereotiplərin təsiri altında formalaşan məişət zorakılığının qurbanları kimi təsvir edilir.

Təhlil zamanı "Dumanlı Təbriz" romanında Təbriz şəhərində yaşayan qadınların ümumiləşdirilmiş obrazı təqdim olunur. Bir tərəfdən, onlar sosial-məişət məhrumiyyətləri şəraitində yaşamaq məcburiyyətindədirlər, digər tərəfdən isə azadlıq və ədalət ideyalarına sadiq qalaraq bu ideallar uğrunda mübarizə aparırlar. M. S. Ordubadinin konseptual mövqeyi ondan ibarətdir ki, qadının azadlığı bütövlükdə cəmiyyətin azadlığının əsas şərtlərindən biridir. Bunu göstərmək üçün o:

a) ilk növbədə qadınların maariflənməsini zəruri sayır;

b) qadının ictimai proseslərə qoşulmasını təbliğ edir;

c) sevgi və ailə münasibətlərini sosial ədalət mübarizəsi ilə birləşdirir.

Bu kontekstdə "Dumanlı Təbriz" əsəri yalnız siyasi məzmun daşıyan bir roman kimi deyil, eyni zamanda qadın obrazlarının sosial-mədəni inkişaf dinamikasının bədii təcəssümü kimi qiymətləndirilə bilər. M. S. Ordubadi qadın surətlərini yalnız ailə daxilində deyil, müəyyən hallarda cəmiyyətin aparıcı və təşəbbüskar qüvvəsi kimi təqdim etməklə onların ictimai funksionallığını genişləndirir.

Nəticə etibarilə, M. S. Ordubadinin "Dumanlı Təbriz" romanında qadın obrazlarının təqdimatı təkcə bədii-estetik məqsədlərlə məhdudlaşmır, həm də dövrün sosial-mədəni transformasiyalarını əks etdirən mühüm ideya yükü daşıyır. Müəllif qadın surətlərini ictimai düşüncənin formalaşmasında aktiv iştirak edən, milli oyanış prosesinə təkan verən sosial subyektlər kimi təsvir edir. Xüsusilə Mahru obrazının işlənmə prinsipi göstərir ki, M. S. Ordubadi qadının mənəvi və intellektual potensialını yüksək qiymətləndirir, onu cəmiyyətin modernləşmə prosesində aparıcı qüvvələrdən biri kimi təqdim edir. Bu yanaşma Azərbaycan ədəbiyyatında qadın idealının estetik, ideoloji və konseptual sərhədlərini genişləndirərək, qadının ictimai funksiyasına dair yeni təsəvvürlərin formalaşmasına şərait yaradır.

Məmməd Arifin fikrincə, M. S. Ordubadi "sosial hadisələrin təsvirində sadə təsvirçiliyə yox, mənəvi motivlərin dərin analizinə üstünlük verir" [4, s. 54]. Bu mənəvi analiz "Dumanlı Təbriz" romanında qadın obrazlarının bədii quruluşunu müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. M. S. Ordubadi qadın surətlərinin daxili aləmini, mənəvi motivasiyalarını və sosial davranış modellərini bu analitik çərçivə daxilində təqdim etməklə onların bədii strukturda tutduğu funksional mövqeyi daha da gücləndirir. Nəticədə qadın obrazları təkcə hadisələrin iştirakçıları deyil, həm də əsərin ideya-məzmun sistemini formalaşdıran aparıcı mənəvi-sosial komponentlər səviyyəsinə yüksəlir.

"Dumanlı Təbriz" romanında təsvir olunan hadisələr XX əsrin əvvəllərinə — milli-azadlıq hərəkatının gücləndiyi, siyasi proseslərin kəskinləşdiyi və cəmiyyətin mənəvi özünüdərk meyllərinin artdığı bir dövrə uyğunlaşdırılmışdır. Bu mürəkkəb tarixi-sosial kontekstdə qadın surətləri yalnız ailə və məhəbbət münasibətlərinin çərçivəsində qalmır, eyni zamanda milli-azadlıq ideyalarının təcəssümündə və ictimai şüurun formalaşmasında mühüm funksional mövqeyə yüksəlirlər. Yazıçı qadın obrazlarını cəmiyyətin modernləşmə istiqamətində dəyişən strukturunu əks etdirən fəal sosial subyektlər kimi təqdim etməklə onların bədii-estetik yükünü genişləndirir və əsərin ideya-kompozisiya sistemində strateji əhəmiyyət kəsb edən bir səviyyəyə qaldırır.

L. N. Tolstoyun "Anna Karenina" romanında Katerina Aleksandrovna Şerbatskaya əsas obrazlardan biri kimi diqqət mərkəzinə çəkilir. Müəllif onun həyat yolunu, psixoloji aləmini və sosial davranışlarını geniş bədii təsvir müstəvisində təqdim edir. Hisslərinin formalaşdığı və şəxsi seçimlərin həlledici mərhələyə çatdığı bir dövrdə Kiti Aleksey Vronski və Konstantin Levin arasında qərarvermə zərurəti ilə üz-üzə qalır. Bu ziddiyyətli situasiya onun emosional sabitliyini pozur, ev mühitində narahatlıq hissini gücləndirir və daxili gərginlik yaradır. Çünki verəcəyi qərar yalnız şəxsi münasibətlərin deyil, həm də gələcək həyat yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı.

Uzunmüddətli tərəddüdlərdən sonra Kiti Levinin təklifini qəbul etməmək qərarına gəlir və Vronskiyə üstünlük verir. Lakin qısa zaman kəsiyində o, bu seçimin zahiri təsəvvürlərin və emosional təsirlərin nəticəsi olduğunu anlayır və verdiyi qərarın düzgün olmadığını dərk edir. Bu vəziyyət Kitinin psixoloji inkişaf xəttində mühüm dönüş nöqtəsi kimi çıxış edir və onun mənəvi özünüdərk prosesinin daha da dərinləşməsinə şərait yaradır. Məhz belə bir həssas mərhələdə Anna Kareninanın meydana çıxması Kiti Şerbatskayanın bütün arzu və niyyətlərinin, həmçinin gələcəyə yönəlmiş ümidlərinin puça çıxmasına səbəb

olur. Annanın sosial nüfuzu, davranış tərzi və Aleksey Vronski ilə formalaşan münasibəti Kitinin daxili tarazlığını pozur, onun mənəvi-psixoloji sabitliyini sarsıdır və psixoloji durumunda dərin gərginlik yaradır.

Təhkiyəçi qəhrəmanların yaşadıqları həyəcanı, yaxın zamanda atacaqları addımları və həmin məqama xas düşüncə tərzini sanki əvvəlcədən hiss etdirərək oxucuya dolayı şəkildə çatdırır. Bu bədii priyom həm əsas obrazların, həm də ikinci dərəcəli personajların təsvirində ardıcıl şəkildə tətbiq olunur və hətta heyvanların davranışlarının verilməsində belə özünü göstərir. Beləliklə, təhkiyəçi hadisələrin gedişatını yalnız müşahidə edən deyil, həm də personajların emosional və psixoloji dinamizmini öncədən duyub ötürən bir vasitəçi funksiyasına yüksəlir.

Yeri gəlmişkən, L. N. Tolstoyun yaratdığı geniş psixoloji təsvir ənənəsi kimi, M. S. Ordubadi də “Dumanlı Təbriz”, “Qılınc və qələm”, “Döyüşən şəhər” və digər əsərlərində bu bədii üsuldan yüksək peşəkarlıqla istifadə etmişdir. Bu priyom yazıçının personajların daxili aləmini daha dərindən açmasına, hadisələrin emosional fonunu gücləndirməsinə və bədii mətnin psixoloji yükünü artırmasına xidmət edir.

Anna Kareninanın faciəsinin mahiyyətini açmaq baxımından romanda yer alan daxili monoloqların rolu xüsusi əhəmiyyət daşıyır. L. N. Tolstoy bədii təhkiyədə əsasən monoloji mövqedən çıxış edir və bu üsulla həm qəhrəmanların xarakter xüsusiyyətlərini, həm də onların psixoloji vəziyyətlərini dərindən açmağa çalışır. M. M. Baxtinin fikrincə, “L. N. Tolstoyun monoloji nöqteyi-nəzəri və onun sözü hər şeyi öz vəhdətinə tabe edir, dünyanın və ruhun hər bir bucağına nüfuz edir” [2, s. 90]. Bu yanaşma göstərir ki, L. N. Tolstoy üçün sözün monoloji təbiəti qəhrəmanın daxili aləminə nüfuz etməyin əsas vasitəsidir.

M. S. Ordubadi isə sözün həm monoloji, həm də dialoji təbiətini paralel şəkildə inkişaf etdirərək qəhrəmanların xarakterlərini çoxşaxəli formada təqdim edir. Onun yaradıcılığında monoloji və dialoji qatlar bir-birini tamamlayan struktur elementlərə çevrilir, yəni monoloji düşüncənin intensivləşməsi dialoji qarşıdurmaların da dərinləşməsinə şərait yaradır. Qəhrəmanların daxili mühakimələri onların qarşılaşdıqları problemlərin mahiyyətini daha dolğun anlamağa, dialoji münasibətlərin məzmununu aydınlaşdırmağa və süjet daxilində atacaqları növbəti addımlar üçün psixoloji baza formalaşdırmağa xidmət edir.

Beləliklə, M. S. Ordubadinin bədii dünyasında süjetin təşkili, kompozisiyanın quruluşu və obrazların inkişafı monoloq və dialoqların qarşılıqlı şəkildə işlək olması ilə səciyyələnir. Bu iki ünsürün harmonik və məntiqi əlaqəsi yazıçının psixoloji təhkiyə imkanlarını genişləndirir və əsərin estetik sistemini daha zəngin şəkildə formalaşdırır.

L. N. Tolstoyun “Anna Karenina” romanında Konstantin Levin və Kiti Şerbatskaya obrazları bir-birini tamamlayan, harmonik şəkildə inkişaf edən və ailə səadəti ideyasını təcəssüm etdirən personajlar kimi nəzərə çarpır. Onların qarşılıqlı sevgi münasibətləri və ailə modelinin formalaşması, Anna ilə Vronski arasındakı münasibətin faciəvi sonluğu fonunda kəskin semantik və emosional kontrast yaradır. Bu qarşıdurma romanın ümumi ideya-məzmun strukturunda ailə dəyərlərinin və mənəvi sabitliyin əhəmiyyətini ön plana çıxarır.

Rus tədqiqatçısı V. Vinoqradov da L. N. Tolstoyun qadın qəhrəmanlarını “həqiqət axtarışında əxlaqi sınaqlardan keçən ruhlar” [9, s. 63] kimi xarakterizə edir ki, bu da Annanın obrazında xüsusilə aydın şəkildə təcəssüm olunur. Anna bu əxlaqi və psixoloji sınaqlardan keçməyə çalışsa da, cəmiyyətin ona yönəltdiyi sərt təzyiqlər və öz daxilində yaşadığı ziddiyyətlər nəticə etibarilə onu faciəvi sonluğa aparır. Onun taleyi həm fərdi azadlıq axtarışının, həm də sosial normaların dağıdıcı gücünün dramatik şəkildə toqquşmasının bədii ifadəsinə çevrilir.

L. N. Tolstoyun qadın qəhrəmanları ilə M. S. Ordubadinin qadın qəhrəmanları arasında müəyyən oxşar cəhətlər mövcuddur. Hər iki müəllifin əsərlərində ailə və sevgi məsələlərinə geniş yer ayrılmış, zəngin obraz və xarakterlər qalereyası yaradılmışdır. Bununla yanaşı, L. N. Tolstoyun romanları M. S. Ordubadinin əsərlərindən fərqli olaraq bədii təsvir və ifadə vasitələrinin zənginliyi, təhkiyə üsullarının təkmilliyi, süjet situasiyaları və kompozisiya elementlərinin dolğunluğu ilə seçilir. Bir az sonra fikrimizi hər iki yazıçının romanlarından götürdüyümüz nümunələrlə əsaslandırmağa çalışacağıq.

M. S. Ordubadinin “Dumanlı Təbriz” romanının əsas nüvəsində hadisələrin mərkəzində daim qadın obrazları iştirak edir. Müəllif romanda Təbriz qadınlarını bacarıqlı, ədəbli, idraklı, fikriaçıq və gözəl təsvir edir. Onlar yalnız ailədə xörək bişirmək üçün deyil, eyni zamanda müxtəlif işlərin öhdəsindən gələ bilən, çoxcəhətli qabiliyyətlərə malik insanlar kimi təqdim olunur. Ədib qeyd edir ki, “gözlərindən gülmək və baxışında oynamaq yalnız Təbriz qadınlarına məxsus bir gözəllikdir. Onu Şərqin başqa qadınlarında görmək mümkün deyil” [6, I, s. 84–85]. M. S. Ordubadi romanda Şərq qadınlarını tez-tez Qərb qadınları ilə müqayisə edir və adətən birincilərə daha çox üstünlük verir. O, Şərq qadınlarının milli zəminə, adət-

ənənələrə və ailə münasibətlərinə bağlılığını yüksək qiymətləndirir və bu xüsusiyyətlər onların xarakterində mühüm yer tutur.

"Dumanlı Təbriz" romanında qadın obrazları yalnız ailə və məişət məsələləri ilə məhdudlaşmır, eyni zamanda ictimai fəaliyyətə aktiv şəkildə qoşulurlar. Onlar öz təşəbbüsləri və bacarıqları ilə kişilərdən geri qalmadıqlarını nümayiş etdirir, ictimai mübarizədə iştirak etməklə həm şəxsi, həm də kollektiv məqsədlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Xüsusilə Nina və Mahru xanımın fəaliyyəti bu aspektdə diqqətəlayiqdir və onların cəmiyyətdə aktiv mövqeləri qadın obrazlarının çoxşaxəli funksiyasını aydın şəkildə ortaya qoyur.

"Anna Karenina" və "Dumanlı Təbriz" romanları fərqli zaman və məkan kontekstində yaranmış olsa da, hər iki əsərdə qadın obrazlarının ailə, cəmiyyət və mənəvi dəyərlər baxımından daşıdığı funksiyalar onların ədəbi müqayisəsini mümkün və elmi baxımdan əhəmiyyətli edir. Bu kontekst qadın surətlərinin sosial rolunun və daxili psixoloji vəziyyətinin müxtəlif mədəni və tarixi şəraitdə təhlilinə geniş imkanlar yaradır.

"Dumanlı Təbriz" romanında Mahru xanım yalnız ailə daxilində deyil, həm də ictimai-siyasi hadisələrin fonunda formalaşan qadın obrazıdır. O, Təbrizdəki milli-azadlıq mübarizəsi şəraitində məsləkdaşlarına mənəvi dəstək rolunu oynayır və öz xarakterində iradə, fədakarlıq və təhlükə qarşısında qətiyyət nümayiş etdirir. M. S. Ordubadi Mahru obrazı vasitəsilə dövrün milli-azadlıq hərəkatında qadınların funksional rolunu və cəmiyyət qarşısında məsuliyyətlərini əks etdirir.

"Anna Karenina" romanında Darya Aleksandrovna üçün ailə məsələsi onun şəxsiyyətinin əsas komponentini təşkil edir. Dolli daxilən hiss edir ki, ailəsinin dağılması onun varlığının mənasına, psixoloji durumuna və həyat keyfiyyətinə ciddi təsir göstərəcəkdir. Həyat yoldaşının xəyanətinə baxmayaraq, o, ailəsini qorumağı üstün tutur; onun obrazında ailəyə sədaqət, analıq məsuliyyətinə bağlılıq, haqsızlığa qarşı dözüm və mənəvi təmizlik kimi keyfiyyətlər öz əksini tapır. "Dumanlı Təbriz" romanındakı Mahru obrazında isə ailə məsələsi həm şəxsi sevginin, həm də ictimai mübarizə kontekstində mənəvi dayaq rolunu oynayır. Beləliklə, Dollinin ailə daxilindəki mübarizəsi əsasən psixoloji çərçivədə inkişaf edir, Mahrunun mübarizəsi isə daha geniş ictimai-siyasi müstəvidə formalaşır.

Dolli obrazının təsviri zamanı psixologizm geniş şəkildə özünü göstərir; onun fikir və düşüncələri, hissləri və qərarları oxucuya ətraflı şəkildə təqdim olunur, atacağı addımlar və verəcəyi qərarlar daxili dünyasının təhlilinə imkan yaradır. Mahru obrazı isə əsasən Təbrizdə baş verən ictimai-siyasi hadisələr fonunda açılır; onun psixoloji portreti geniş təqdim olunmasına baxmayaraq, daha çox davranış və fədakarlıq motivləri vasitəsilə ifadə olunur. Dolli Aleksandrovnanın qarşılaşdığı problemlər məişət və ailə münasibətləri ilə bağlıdır, Mahru isə milli-azadlıq mübarizəsi şəraitində formalaşan qadın tipini təmsil edir. Beləliklə, Mahrunun mübarizəsi Dollidən fərqli olaraq həm şəxsi ailə, həm də xalqın gələcəyi ilə bağlıdır.

Dolli və Mahru iki fərqli ədəbi mühitin personajları olsalar da, hər ikisi öz cəmiyyətində qadının mənəvi gücünü, sədaqətini və ailəyə bağlılığını təcəssüm etdirir. Dolli əsasən psixoloji dərinliyi və ailədaxili mübarizəsi ilə seçilir, Mahru isə milli-azadlıq mübarizəsinin simvolik qadını kimi həm ailəyə, həm də ictimai məqsədlərinə sədaqəti ilə ön plana çıxır. Bu müqayisə göstərir ki, hər iki obraz öz romanında sosial-mənəvi dəyərlərin daşıyıcısı kimi mühüm funksiyanı yerinə yetirir.

"Anna Karenina" romanında Darya Aleksandrovna ənənəvi rus ailə modelinin daşıyıcısı kimi təqdim olunur. O, ərinə sədaqətli olması, analıq məsuliyyətini layiqincə yerinə yetirməsi və ailə daxilindəki çətinliklərə dözümlə yanaşması ilə seçilir. "Dumanlı Təbriz" romanında Mahru isə M. S. Ordubadinin milli mübarizə dövründə formalaşdırdığı mənəvi gücə malik, cəsarətli və iradəli qadın surətidir. Müəllif Mahru obrazı vasitəsilə Azərbaycan qadınının ləyaqətini, mənəvi dayanıqlığını və mübarizə ruhunu nümayiş etdirir. Oxucu roman boyunca Mahrunun gücünü onun geniş şəkildə görünməyən, lakin həlledici məqamlarda üzə çıxan gizli və məqsədyönlü fəaliyyətində müşahidə edir.

Dolli Aleksandrovna və Mahru müxtəlif mədəniyyətlərə və xalqlara məxsus qadın surətləri olsalar da, hər iki obraz ailə dəyərlərini mənəvi prinsip kimi qorumaq xüsusiyyəti ilə seçilir. Onlar təqdim olunduqları ədəbi mühitdə mənəvi dayaq nöqtəsi kimi çıxış edən əsas qadın surətləridir. Həm Dolli, həm də Mahru ailəyə sədaqət, mənəvi möhkəmlik və daxili əxlaqi harmoniya baxımından oxşar ideya yükü daşıyır. Bu səbəbdən hər iki obraz əsərlərin məzmun xətti boyunca ailə, sədaqət və mənəvi güc kontekstində qarşılaşdırılaraq təqdim edilir.

"Anna Karenina" romanında təsvir olunan kübar qadınlar maddi cəhətdən təminatlı olduqları üçün vaxtlarını ballarda, tamaşalarda və müxtəlif əyləncə məclislərində keçirirlər. Bunun əksinə olaraq, "Dumanlı Təbriz" romanındakı qadınlar ağır sosial-iqtisadi şəraitdə, ehtiyac içində yaşayırlar. Məsələn,

Zeynəb obrazı Ninanın evində qulluqçu kimi çalışan, savadsız olsa da, sadə, təmizkar, evdar və yüksək mənəvi keyfiyyətlərə malik bir qadın kimi təqdim edilir. O, nəzakətli davranışı, səxavətliliyi və yaşmağı daim üzündən götürməməsi ilə ənənəvi Şərq qadını modelini təcəssüm etdirir. Bu təsvirlər müəllifin Təbriz qadınlarını yüksək mənəvi gücə, fədakarlığa və dözümlülüyə malik surətlər kimi təqdim etməsinin bariz göstəricisidir.

**Nəticə.** Təhlildən belə nəticəyə gəlmək mümkündür ki, L. N. Tolstoyun "Anna Karenina" və M. S. Ordubadinin "Dumanlı Təbriz" romanlarında qadın obrazları müxtəlif ideya-estetik istiqamətlərdə təqdim olunsa da, hər iki müəllif qadınların mənəvi-psixoloji aləminin mürəkkəbliyini və dərinliyini yüksək bədii səviyyədə əks etdirməyə nail olmuşdur. L. N. Tolstoyun Anna Kareninası azadlıq və şəxsi xoşbəxtlik axtarışında cəmiyyətin sərt normaları ilə toqquşan fərdi tip kimi formalaşdığı halda, M. S. Ordubadinin qadın surətləri milli-ideoloji özünüdərk prosesinin fəal iştirakçıları və azadlıq uğrunda mübarizənin simvolik daşıyıcıları kimi təsvir edilir.

Hər iki əsərdə qadın obrazı insanın mənəvi dəyərlər qarşısında öz mövqeyini müəyyənləşdirən, fərdi və ictimai kimliyini dərk edən subyekt kimi təqdim olunur. Bu mənada "Anna Karenina" və "Dumanlı Təbriz" romanları qadının həm şəxsi, həm də ictimai varlıq olaraq formalaşması prosesini əks etdirən nümunəvi ədəbi mətnlər hesab edilə bilər.

L. N. Tolstoy qadın obrazının təsviri vasitəsilə cəmiyyətin mənəvi tənəzzülünü, dəyərlər sistemindəki ziddiyyətləri və fərdin bu ziddiyyətlər qarşısında yaşadığı daxili dramatizmi üzə çıxarır. M. S. Ordubadi isə qadın surətini cəmiyyətin mənəvi yenilənməsinin başlıca dayağı kimi təqdim edir və onu sosial oyanışın, milli dirçəlişin aparıcı mənəvi qüvvəsi kimi dəyərləndirir.

Anna Karenina fərdi hisslərini cəmiyyətin mövcud mənəvi və sosial normalarından üstün tutduğu üçün ziddiyyətli vəziyyətə düşür və bu ziddiyyətin nəticəsi olaraq faciəyə məhkum olur. Onun ölümü həm fərdi səviyyədə məhəbbət və azadlıq axtarışının uğursuzluğu, həm də ictimai müstəvidə patriarxal əxlaq sistemi ilə insanın daxili tələbatları arasındakı uyğunsuzluğun ifadəsi kimi dəyərləndirilir.

Mahru isə M. S. Ordubadinin idealizə etdiyi qadın modelinin bədii təcəssümüdür. O, mənəvi bütövlüyünü itirmədən ictimai mübarizənin fəal iştirakçısına çevrilir və milli-ideoloji məqsədlərə sadiqliyi ilə seçilir. Yazıçı Mahru obrazında faciəvi sonluqdan deyil, mənəvi möhkəmlik və ideya üstünlüyündən doğan qələbədən bəhs edir. Beləliklə, Mahru surəti qadının cəmiyyətdə yeniləyici və istiqamətləndirici qüvvə kimi təqdim edilməsinin parlaq nümunəsinə çevrilir. Mahru və Kiti obrazları fərqli bədii sistemlərin məhsulu olsalar da, hər ikisi qadının mənəvi aləminin tədqiqinə mühüm töhfə verir. Kiti psixoloji yetkinlik, ailə dəyərləri və mənəvi saflığın simvoludur. Mahru isə milli oyanışın, ideya möhkəmliyinin və sosial məsuliyyətin daşıyıcısıdır. Müqayisələr göstərir ki, L. N. Tolstoy qadın obrazını daha çox fərdi-mənəvi və ictimai müstəvidə, M. S. Ordubadi isə ictimai-ideoloji kontekstdə təqdim etmişdir.

## FOYDALANILGAN ADABIYOTLAR ROʻYXATI

1. Axundlu Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930–2000). — Bakı: "Adiloğlu" nəşriyyatı, 2005. — 550 səh.
2. Baxtin M.M. Dostoyevski poetikasının problemləri / rus dilindən tərcümə, giriş məqalə və qeydlər M.Q. Qocayevindir. — Bakı: "Kitab aləmi" nəşriyyat-poliqrafiya mərkəzi, 2005. — 384 səh.
3. Qocayev M.Q. Dostoyevski ətrafında düşüncələr. — Bakı: "Elm və təhsil", 2012. — 208 səh.
4. Məmməd Arif. Azərbaycan romanının inkişaf yolları. — Bakı, 1960. — S. 54.
5. Mirsky D.S. A History of Russian Literature. — London, 1949. — P. 287.
6. Ordubadi M.S. Dumanlı Təbriz: roman: iki kitabda. Birinci kitab. — Bakı: "Yazıçı", 1985. — 270 səh.
7. Tolstoy L.N. Əsərləri: 14 clddə. 8-ci cild. Anna Karenina. I kitab. I–IV hissələr. — Bakı: "Yazıçı" nəşriyyatı, 1980. — 579 səh.
8. Vəzirova F. Məmməd Səid Ordubadi: monoqrafiya. — Bakı: "Gənclik", 1970. — 122 səh.
9. Виноградов В.В. Стиль Толстого. — М.: Просвещение, 1972.